Nəzəri, Klinik və Eksperimental Morfologiya Jurnalı — 2019 — Cild 1, №2. Yubiley. Səh..104-105

# ÖMRÜN 80-Cİ BAHARI



*Əməkdar elm xadimi, professor Ş.İ. Mahalov*

2019-cu ilin sentyabr ayının 15-də görkəmli alim, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının müdiri, Azərbaycan Nevroloqlar Assosiasiyasının və Epilepsiya ilə mübarizə Beynəlxalq Liqasının Azərbaycan bölməsinin prezidenti, əməkdar elm xadimi, professor Şərif İslam oğlu Mahalovun anadan olmasının 80, elmi-pedaqoji və həkimlik fəaliyyətinin 55 ili tamam oldu.

1939-cu ilin sentyabr ayının 15-də Qax rayonunun İlisu kəndində anadan olan Ş.İ.Mahalov əvvəl həmin rayonda, sonra isə Zaqatala rayonundakı 2 saylı rus məktəbində təhsilini davam etdirmiş, 1958-ci ildə isə Kuybışev Dövlət Tibb İnstitunun müalicə fakültəsinə daxil olub. Vətən sevgisi 1960-cı ildə onu doğma Azərbaycana qayıtmağa məcbur edib və həmin ildən o, təhsilini N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda davam etdirib. Ali məktəbi bitirdikdən sonra Şərif müəllim praktik təbabətlə məşğul olsa da, elmə və təhsilə olan marağı onu əvvəl Ə. Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutuna, sonra isə Azərbaycan Tibb Universitetinin Sinir xəstəlikləri kafedrasına gətirib çıxarır. Qısa müddət ərzində müvəf-fəqiyyətlə namizədlik dissertasiyası müdafiə edən gənc alim, elmin zirvələrinə doğru irəliləməyi özünə mənəvi borc hesab edir və Moskva şəhərinə ezam olunur. 1987-ci ildə Ş.İ.Mahalov N.İ.Piroqov adına II Moskva Dövlət Tibb İnstitutunda doktorluq dissertasiyası müdafiə edərək professor elmi adına layiq görülür.

Professor Ş.İ.Mahalov 1991-ci ildən Nevrologiya və tibbi genetika kafedrasına rəhbərlik edir. Elmi-pedaqoji və həkimlik fəaliyyəti illərində Şərif müəllim Nevrologiya və Nüvropatologiya sahəsinə əhəmiyyətli dərəcədə yeniliklər gətirmiş, həmin yeniliklər onun gündəlik fəaliyyətində, yazdığı eılmi əsərlərində, yetişdirdiyi gənc kadrların dissertasiya və məqalələrində öz əksini və tətbiq sahəsini tapmışdır. Yerli və xarici ölkə alimlərinin də qeyd etdiyi kimi 10 mindən artıq insan haqqında məlumat toplayıb unikal xəstələri aşkar etmək çox nadir hallarda mümkündür. Lakin prof. Ş.İ.Mahalov belə bir ağır işin öhtəsində qısa müddət ərzində gələ bilmişdir. Keçən əsrin 90-ci illərində Qarabağ müharibəsində yaralanan və kontuziya almış əsgərlər üzərində apardığı elmi araşdırmalar nəticəsində aşkar etdiyi “Posttravmatik stres sindromu” və ya müasir “Qarabağ sindromu” onun ən dəyərli elmi-tədqiqat və həkimlik işlərindən hesab oluna bilər.

Son 20 ildə alimin və onun yetirmələrinin ən çox diqqət yetirdiyi elmi istiqamətlərdən biri də bütün dünya alimlərini də narahat edən və 75 milyon insanın əziyyət çəkdiyi epilepsiya xəs-təliyidir. Hal-hazırda onun rəhbərliyi altında 1 doktorluq və 8 namizədlik işi məhz bu prob-lemin həllinə həsr olunub. Ümumiyyətlə, elmi-pedaqoji fəaliyyəti dövründə onun rəhbərliyi altında 1 doktorluq və 16 namizədlik işi yerinə yetirilib. Prof. Ş.İ.Mahalov 251 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. O, uzun illər Səhiyyə Nazirliyinin baş nevropatoloq - mütəxəssisi, Azərbaycan Tibb Universitetinin FD 03.015 Dissertasiya şurasinin sədri, AAK-ın Ekspert şurasını üzvü kimi ictimai vəzifələri müvəffəqiyyətlə yerinə yetirib. Onun uzunmüddətli məhsuldar elmi-pedaqoji və həkimlik fəaliyyəti ölkə başçısının da diqqətindən yayınmamışdır.

2010-cu ildə Möhtərəm Cənab Prezident İlham Əliyevin sərəncamı ilə ona “Əməkdar elm xadimi” fəxri adı verilib.

Professor Ş.İ.Mahalov bu gün də elmi-pedaqoji və həkimlik fəaliyyətini davam etdirərək gənc həkim kadrlarının yetişdirilməsi sahəsində əlindən gələni əsirgəmir.

Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və tibbi terminologiya kafedrasının kollektivi başda kafedranın müdiri əməkdar elm xadimi, professor V.B. Şadlinski olmaqla ömrünün 80-ci baharını böyük həyat eşqi ilə yaşayan Şərif müəllimi anadan olmasının 80, elmi-pedaqoji və həkimlik fəaliyyətinin 55 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı, gələcək işlərində müvəffəqiyyətlər arzulayır.

**Azərbaycan Tibb Universitetinin İnsan anatomiyası və**
**tibbi terminologiya kafedrasının əməkdaşları**